# “Xarıbülbül”ün solmayan təravəti

**Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən “Xarıbülbül” Beynəlxalq Musiqi Festivalı sona yetsə də, onunla bağlı xoş təəssüratlar iştirakçıları uzun müddət tərk etməyəcək. Bu gözəl bayramdan məmnun qalan sənət adamları “XQ”-yə verdikləri müsahibələrdə sevinc dolu ürək sözlərini dilə gətiriblər.**



**Xalq artisti Nurəddin Mehdixanlı:**

– Mayın 10-da anadan olmasının 101-ci ildönümünü qeyd etdiyimiz Ulu öndər Heydər Əliyev bütövlükdə öz ömrünü, həyatını Azərbaycana həsr etmişdir. Heydər Əliyev deyəndə gözlərimiz önündə böyük azərbaycanlı, siyasi lider, dövlət xadimi, dünya miqyasında tanınan bir şəxsiyyət, Azərbaycanın müstəqilliyini xilas edən bir dövlət adamının portreti canlanır. Bu yaxınlarda 20 illiyi tamam olan Heydər Əliyev Fondu da yarandığı gündən mədəniyyətimizin hamisi rolunda çıxış edir. Məhz bu Fondun təşkilatçılığı ilə bir daha biz azad Şuşada gözəl bir musiqi bayramına toplaşdıq.

Əvvəlki illərdə olduğu kimi, bu festival da çox yüksək səviyyədə təşkil olunmuşdu. Festivalda dünyanın bir çox yerlərindən ifaçılar çıxış etdilər. Ölkəmizdə keçirilən möhtəşəm beynəlxalq tədbirlər bir daha sübut edir ki, Azərbaycan xalqı sülhsevər, qonaqpərvər, dostluq, barış içində yaşamaq istəyən xalqdır.

**Xanəndə, Əməkdar artist Ehtiram Hüseynov:**



– Azad Şuşanın, Laçının növrağını görmək, hər qarışı, hər cığırı doğma olan bu yerləri gəzib-dolaşmaq, gur səslə mahnılar oxumaq mənim üçün əsl xoşbəxtlikdir. “Xarıbülbül” Beynəlxalq Musiqi Festivalı və “Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024” ilinin açılışında olmaq, konsertlərdə çıxış etmək isə ikiqat fərəhlidir. İncəsənət ustalarımız və ISESCO-ya üzv ölkələrin sənətçiləri Cıdır düzündə öz məharətlərini göstərdilər, digər yaddaqalan tədbirlər oldu. Laçında isə buludlar hər kəsi su aydınlığına qovuşdurdu. Mən, Aşıq Sahil Qurbanov, Murad Laçınlı, Dünyamin Əlişov və Ələkbər Ələkbərov birlikdə mərhum Məhəbbət Kazımovun “Laçınım” mahnısını yeni aranjimanda təqdim elədik. Bizlərə bu şəraiti yaradan Heydər Əliyev Fonduna və Mədəniyyət Nazirliyinə minnətdarıq.

**Şair-publisist İlham Qəhrəman:**

– Bir laçınlı kimi fərəh duyuram ki, bu il festivalın məkanı genişlənərək Laçın şəhərini də əhatə etdi. Mənim “Laçın folkloru” adlı kitabım var. Uşaqlıqdan üzübəri eşitdiyim lətifə, bayatı, səvələmə, bəzəmə, tapmaca, əfsanə, ağı, deyişmə və sair kimi ağız ədəbiyyatı nümunələrini toplayıb ipə-sapa düzmüşəm. Festival günlərində sevinc-sevincə qarışdı: Şuşa şəhərinə və doğma Sus kəndimə ilk köç karvanları gəldi. Neçə-neçə ailə doğma ocağına qovuşdu. Mən Laçında səhnəyə çıxıb danışdım, işğal dövründə bu yerlərin gözəlliyindən yana-yana şeir və məqalələr yazdığımı, indi isə Laçına səyahət edib onun gözəlliklərinə heyran qalanların “Laçın nə gözəl imiş!” dediklərini bildirdim. Sonra Şuşanın adı ilə bağlı “Xarıbülbül” musiqi festivalının bir gününün Hoçazın ətəklərində keçirilməsini Şuşanın Laçına salamı və bayram payı kimi qiymətləndirdim.



Festival möhtəşəm oldu. Günün ilk yarısında “Sələflər və xələflər” adlı konsert, daha sonra isə “Aşıq mahnıları yeni səslənmədə” adlı proqram sərgiləndi. Konsertin iştirakçıları Laçında təbiətin bir şıltaqlığının da şahidi olublar – konsertdən əvvəl yağan şıdırğı yağış konsertin başlanmasına bir neçə dəqiqə qalmış kəsdi. Əslində, bayramın Laçında aşıq mahnılarından ibarət proqramla sona yetməsi təsadüfi deyil. Çünki bu yerlər ta qəimdən ozan sənətinin geniş yayıldığı bir ərazidir, haqq aşığı Sarı Aşıq və piçənisli Aşıq Abbas Laçın torpağının yetirmələri olublar. Mən də tədbirdə Sarı Aşıqdan və özündən şeirlər səsləndirdim. Respublikanın tanınmış aşıq və müğənnilərinin iştirakı ilə keçirilən tədbir laçınlıların coşqu və alqışlarıyla başa çatdı.

***Əli ƏLİYEV***
***XQ***